https://doi.org/10.59849/3006-2403.2025.2.145

***Xəyalə HÜSEYNOVA***
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA Gəncə Bölməsi, Nizami Gəncəvi Mərkəzi***
***Orcid: 0009-0002-0458-9898***
***E-mail: xeyalehuseynova458@gmail.com***

# "SİRLƏR XƏZİNƏSİ" MƏSNƏVİSİNDƏ "SÜLEYMAN PEYĞƏMBƏRLƏ QOCA ƏKİNÇİNİN HEKAYƏTİ"

*Açar sözlər:* Nizami Gəncəvi, Sirlər xəzinəsi, Qurani-Kərim, Süleyman peyğəmbər, əkinçi

Nizami Gəncəvinin "*Sirlər xəzinəsi"* məsnəvisi insan həyatının müxtəlif fəlsəfi və mənəvi aspektlərini əhatə edən zəngin ədəbi mənbədir. Əsərdə ədalət, əxlaq, dürüstlük, insaf kimi ali insani keyfiyyətlər müxtəlif hekayətlər və ibrətamiz məqalətlər vasitəsilə bədii formada təqdim olunur. Bu mövzular gündəlik həyatın müxtəlif sahələrində insan davranışlarına örnək ola biləcək nümunələri təqdim edir. Əsərdə qaldırılan əxlaqi məsələlərin bir çoxu Qurani-Kərimdə yer alan dini prinsiplərlə səsləşir. Eyni zamanda *"Sirlər xəzinəsi" şairin yaradıcılığında yeni bir mərhələnin başlanğıcı olmaqla yanaşı, bütün Şərq ədəbiyyatında həm forma, ölçü-vəzn, həm kompozisiya, həm də mövzu, ideya baxımından tamamilə yeni bir istiqamətin özülünü qoydu* [6, s. 174.]

"Sirlər xəzinəsi" poemasına daxil olan hekayətlərdən biri də "Süleyman peyğəmbərlə qoca əkinçinin hekayəti"dir ki, burada Nizami zahiri və batini anlamların vəhdətini əks etdirərək, sadə həyat fəlsəfəsi ilə peyğəmbər müdrikliyini qarşılaşdırır və oxucuya dərin mənəvi-didaktik ideyalar çatdırır. Nizami Gəncəvinin "Süleyman peyğəmbərlə qoca əkinçinin hekayəti" digər hekayətlər kimi bu gün də öz aktuallığını qorumaqdadır. Hekayənin əsas mövzusu olan zəhmətlə əldə edilən halal qazanc, əməklə qazanılan nemətə laqeyd yanaşmaq, təvazökarlıq və Allaha təvəkkül kimi məsələlər müasir dövr üçün də mühüm əhəmiyyət kəsb edir.

Dahi mütəfəkkir deyir:

Günlərin bir günündə qanad açdı diləyi,
Bir çırağa yetişdi Süleymanın küləyi.
Təntənəylə, cəlalla yön aldı çöl səmtinə,
Qaldırdı öz təxtini göyün mina təxtinə [2, s. 106].

باد سلیمان به چراغی رسید
مملکتش رخت به صحرا نهاد
تخت بر این تختهٔ مینا نهاد
دید به نوعی که دلش پاره گشت [9]

Hekayədə yer alan Süleyman obrazı Qurani-Kərimdə adı çəkilən və ilahi hikmət, hökmranlıq, yüksək mənəvi dəyərlərlə tanınan peyğəmbər kimi təqdim olunur. Sad surəsinin 30 -cu ayəsində buyurulur: "Biz Davuda Süleymanı bəxş etdik. Nə gözəl bəndə! O, daim Allaha sığınan bir kimsə idi. (Onun rizasını qazanmaq diləyirdi)" [5, 38/30]. Sad surəsinin bu ayəsində vurğulanan "daim Allaha sığınmaq" və "Onun rizasını qazanmaq istəyi" motivləri Nizaminin hekayəsində də öz əksini tapır. *Süleymanın adı tarixdə mehriban peyğəmbər, ədalətli padşah və hikmətli bir alim kimi tanınıbdır* [8, s. 402]. Şair Süleyman obrazı vasitəsilə insana verilən qüdrət və nemətin yalnız ilahi iradəyə təslim olmaqla, ədalət və təvazö ilə dəyər qazana biləcəyini göstərir, ancaq dini kontekstdə deyil, eyni zamanda insani

keyfiyyətləri ön plana çəkərək təqdim edir. Beləliklə, o, peyğəmbər obrazını ideal insan nümunəsi kimi, lakin fövqəladə gücdən daha çox mənəvi üstünlüklərlə təcəssüm etdirir. Hekayədə mənəvi dərslərlə yanaşı, dahi şair oxucuya Süleyman peyğəmbərlə bağlı bəzi məlumatları da çatdırır. Bildirilir ki, peyğəmbərin taxtı onunla birgə hərəkət edərdi və "Süleymanın küləyi" ifadəsi də məhz bu fövqəltəbii qüdrətə işarədir. Ənbiya surəsində də bu haqda məlumat verilmişdir. *"Şiddətli küləyi də Süleymanın xidmətinə vermişdik. Onun əmri ilə külək bərəkət verdiyimiz yerə doğru əsirdi"* [3, s.59 ].

Hekayədə göstərilir ki, Süleyman peyğəmbərin məskunlaşdığı ərazidə zəhmətkeş bir əkinçi onun diqqətini cəlb edir. O, əlləri ilə torpağa dən səpərək halal zəhmətə söykənən bir həyat tərzi nümayiş etdirir. Şair hekayənin davamında bu mənzərəni daha təsirli şəkildə təqdim edərək deyir:

Çöldə bir cütçü gördü, təzələndi nəfəsi,
Onda sevinc oyatdı əkinçinin həvəsi.
Evindən gətirdiyi ovuc-ovuc məhsulu,
Səxavət mədəninə saçmışdı zəhmət oğlu [2, s. 106].

دام نه‌ای دانه فشانی مکن
با چو منی مرغ زبانی مکن
بیل نداری گِل صحرا مخار
آب نیابی جو دهقان مکار[9]

Əkinçi obrazı təvazökar, zəhmətkeş və təvəkkül sahibi bir insan kimi təqdim edilir. Onun Allah-təalaya bağlılığı, ruzi üçün çalışmaqla yanaşı, nəticəni Yaradanın iradəsinə həvalə etməsi, təqva və sabitqədəmlik nümunəsi kimi dəyərləndirilir. Hekayənin əsas ideyası məhz bu iki obrazın, dünyəvi və mənəvi hakimiyyət sahibi olan peyğəmbərlə sadə, lakin iman və təvəkkül sahibi olan əkinçinin dialoqu vasitəsilə ifadə olunur.

Dahi mütəfəkkir Nizami yazır:

Danələrin sirrini əkinçi bir-bir açdı,
Süleyman dilə gəldi, sanki quşlar danışdı:
Quş deyilsən ki... dəni boş yerə çölə saçma,
Gəl, mənimlə bu yerdə quş dililə danışma.
Hanı əlində belin? Az cırmaqla səhranı,
Nə suyun var, nə arxın. Zay eləmə arpanı.
Düşün: sulu torpağa biz səpdik nə qədər dən,
Zəhmətindən savayı nə gördük bu əkindən?
Dəni külə döndərən bu təşnə çöllərdə sən,
Yandırsan da canını, nə qazana bilərsən? [2, s. 106]

Bu hissədə şair, həm Süleyman peyğəmbərə məxsus olan, Allah tərəfindən bəxş edilmiş "quş dili" möcüzəsinə işarə edir, həm də peyğəmbərin həyata baxışını, əkinçi ilə dialoqu vasitəsilə təqdim edir. *Hz.Süleymana (a.s.) quş dili və başqa heyvanların da dili öyrədilmişdir. Hətta bir gün O (a.s.) ordusu ilə qarışqa vadisinə getdi. Orada bir qarışqa digərlərinə Hz.Süleymanın (a.s.) ordusu tərəfindən əzilməmək üçün yuvalarına girmələrini söylədi. Bunu eşidən Süleyman peyğəmbər (a.s.) Allaha şükr etmişdir* [ 3, s.59; 7, c.2, s.325].

Peyğəmbər təəccüblə əkinçini izləyir və ona suyun olmadığı, səhralıq bir ərazidə səpin aparmağın mənasız olduğunu bildirir. Özünün də sulu torpaqlarda əkin etdiyini, lakin zəhmətinin əvəzində gözlənilən nəticəni ala bilmədiyini söyləyərək, qocanı faydasız zəhmətə vaxt itirməməyə çağırır. Bu çıxışda həm təbii qanunauyğunluğa diqqət çəkilir, həm də maddi zəminin önəmi ön plana çıxarılır.

Süleyman peyğəmbərlə əkinçi arasında gedən söhbətdən sonra dahi şair hekayənin fəlsəfi qatını daha da dərinləşdirərək insanın daxili gücünü, iradəsini və əməyin mahiyyətini izah edən rəmzi beytlərə keçid edir:

Kərgədan fil boynunu parçalar, düşsə eşqə,
Ölü bir çəyirtkəni zorla çəkər qarışqa.
Yüz nəhri nuş etsə də, səs çıxarmaz ümmanlar,
Arx isə bircə seldən coşar, hay-haray salar [2, s. 107].

Dahi şair bu beytlərdə təbiət mənzərələri üzərindən dərin elmi-fəlsəfi ideyaları simvolik formada təqdim edir. Qurani-Kərimdə nümunə kimi təqdim edilən qarışqa və çəyirtkə obrazları burada da işlədilərək insanın iradəsi və əzmi ilə bağlı mühüm bir həqiqət vurğulanır. Deməli, istək olduqda, insanın bacara bilməyəcəyi bir iş yoxdur. Kərgədanın gücünü sevgi qarşısında aciz göstərmək, qarışqanın zəif olduğu halda belə ölünü daşıması, insanın daxili gücünün və iradəsinin önəmini göstərir.

Nəhayət, onlar (Taifdəki, yaxud Şamdakı) qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa (qarışqaların padşahı) dedi: “Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi (ayaqları altında) basıb əzməsinlər!” *[5, 27/18].* Bu ayə Süleyman peyğəmbərin hekayəsi ilə bağlıdır və qarışqanın *təhlükəni əvvəlcədən görməsi, topluma xəbərdarlıq etməsi* onun kiçik olsa da zəkasını və sosial məsuliyyətini göstərir. Dahi şairin də beytlərində bu obrazı işlətməsi təsadüfi deyil, burada **zəif görünənin böyük mənəvi və əqli gücə sahib olması** fikri önə çıxır.

Daha sonra Süleyman peyğəmbər zəhmətkeş qocanı qənaətə, mövcud nemətlərlə kifayətlənməyə çağırır. O, qocaya artıq zəhmət çəkməyə ehtiyac olmadığını, əvvəlki səylərinin bəhrəsi ilə yetinməli olduğunu bildirir.

Süleyman peyğəmbərin sərt iradlarına cavab olaraq qoca əkinçi təvazökarlıqla bildirir ki, o nə torpağın bərəkətinə, nə də yağışın bolluğuna arxalanır. Onun üçün əsas dəyər insanın öz zəhmətidir, nəticənin necə olacağı isə bütövlüklə Allahın iradəsinə bağlıdır. Qoca bu fikrini daha da genişləndirərək vurğulayır ki, əkinin həqiqi “suyu” alnından süzülən tər, “aləti” isə zəhmətdən bərkiyib qabarmış əlləri və dırnaqlarıdır. **Bu təsvirin mahiyyəti tədqiqatçıların əsərlərində də xüsusi diqqətlə qeyd olunur.** *Professor Xəlil Yusifli dahi mütəfəkkirin əməyə verdiyi bu yüksək qiyməti belə ifadə edir: şair əməkçi insanların ağır həyatını təsvir edərək göstərir ki, qoca əkinçi son dənlərini torpağa səpib onları göz yaşı ilə suvarır, torpağı isə bel əvəzinə dırnaqları ilə şumlayır* [1, s. 10]

Bu yanaşmada həm İslamın təvəkkül konsepsiyası, həm də əməklə qazanılan ruzi anlayışının müqəddəsliyi əsas yer tutur. Təvəkkül burada fəaliyyətsizlik deyil, əksinə, insanın əlindən gələni etdikdən sonra nəticəni Allaha həvalə etməsi kimi təqdim olunur.

Qoca əkinçi cavabının davamında Süleyman peyğəmbərin malik olduğu səltənət, güc və sərvətlə bağlı kinayəli, lakin ədəbli bir mövqe ortaya qoyur. O, nə hakimiyyətə sahiblənmək istəyir, nə də var-dövlətə meyl göstərir. Onun üçün dəyər daşıyan yeganə məqam torpaqla, zəhmətlə və halal ruzi ilə bağlı sadə həyat tərzidir. Əkinçi yalnız dənləri torpağa səpməklə kifayətlənmədiyini, həm də onların Allahın izni ilə yeddi yüz qat bəhrə verəcəyinə əmin olduğunu bildirir. Hekayədə “Şeytanla şərik əkməmişəm” ifadəsi xüsusi məna daşıyır. Bu, həm niyyətin saflığını, həm də əməlin halal olduğunu vurğulayan mənəvi prinsipdir.

Bəs Nizami Gəncəvi nə üçün məhz bu hekayəni əsərinə daxil etmişdir? Bu sualın cavabı şairin geniş dünyagörüşü və dərin biliyində axtarılmalıdır. Süleyman peyğəmbər və qoca əkinçi kimi fərqli sosial təbəqələrə mənsub obrazların qarşılaşdırılması Nizaminin məqsədli seçimidir. Şair bu hekayə vasitəsilə peyğəmbər müdrikliyi ilə sadə insan zəhmətinin vəhdətini göstərir. Nizami oxucuya çatdırmaq istəyir ki, insan əvvəlcə zəhmət çəkməli, sonra isə nəticəni Allaha həvalə etməlidir. Beləliklə, zəhmət və təvəkkül bir-birindən ayrılmaz, bir-birini tamamlayan mənəvi dəyərlər kimi təqdim olunur. Hekayədə Nizami Süleyman

peyğəmbərlə qoca əkinçinin dialoqu vasitəsilə maddi zəhmət və mənəvi dəyərlərin qarşılıqlı münasibətini açır, oxucuya əməklə təvəkkülün vəhdətini göstərir.

Onu da qeyd etməliyik ki, peyğəmbərin sualı əslində danlama və ya sərtlik kimi anlaşılmamalıdır. Bu, ilahi hikmətə əsaslanan bir imtahan xarakteri daşıyır. Mənbələrin də təsdiq etdiyi kimi, Süleyman peyğəmbər təbiətcə son dərəcə təvazökar idi. Rəvayətlərdə bildirilir ki, *Süleyman peyğəmbər "Son derece mütəvazı (alçaq könüllü) idi. Miskinlərin yanlarına gedər, onlarla otururdı. "Miskin, miskinlə oturar, deyərdi"* [4, s. 208 ]. Bu məlumat peyğəmbərin böyük alicənablığını və sadəliyini göstərir və aydın olur ki, onun dialoqdakı iradı qətiyyən qınamaq məqsədi daşımır.

Süleyman peyğəmbərin sualı zahiri sərtlik təsiri bağışlasa da, şair burada peyğəmbəri qüsurlu göstərmir, əksinə, onun dediklərini oxucunun düşüncəsini oyadan, daxili mahiyyətə yönəldən bir sınaq kimi təqdim edir. Bu cür dialoq peyğəmbərin insanın mənəvi vəziyyətini, niyyətini və əməyinin saflığını ortaya çıxarmaq üçün verdiyi sualın forma baxımından sərt görünə biləcəyini, lakin məzmunca ilahi hikmət daşıdığını göstərir.

Şairin məqsədi peyğəmbərin davranışına qiymət vermək deyildir. O, bu qarşıdurma vasitəsilə oxucunun içində sual yaradır, onu əməyin, niyyətin və təvəkkülün mahiyyəti üzərində düşünməyə yönəldir. Burada göstərilir ki, hikmət təkcə peyğəmbərlərdə deyil, sadə bir əkinçinin səmimi əməyində də gizlidir, ilahi nur isə yalnız səmada deyil, torpaqda da parıldayır.

Hekayədə iki obraz bir-birinə güzgü oldu, yəni Süleyman əkinçidə sadəliyin arxasındakı hikməti gördü, əkinçi isə peyğəmbərdə əməyin ucalığını dərk etdi.

Kim yalnız dua edər, amma zəhmət çəkməz, o toxum səpmədən məhsul gözləyənə insana bənzəyər. Kim yalnız zəhmət çəkər, amma nəticəni Allaha həvalə etməzsə, onun da əməli səmərəsiz qalar. Şair bu hekayə ilə demək istəyir ki**, insanın mənəvi kamilliyə çatması üçün həm əlin əməyinə, həm də qəlbin təvəkkülünə ehtiyac vardır, çünki əməl ilə iman ayrılmaz bütündür. Hədisdə buyurulduğu kimi,** *" Əməl olmadan iman yoxdur, iman olmadan da əməl yoxdur* (لا إيمان إلا بعمل، ولا عمل إلا بالإيمان)" [10].

ƏDƏBİYYAT

1. Gəncəvi, N. Sirlər xəzinəsi / Filol. tərc., izahlar, şərhlər və qeydlər: R.Əliyev. – Bakı: Elm, – 1981. – 246 s.
2. Gəncəvi, N. Sirlər xəzinsəi / Farscadan tərcümə edəni və izahların müəllifi: X.R.Ulutürk. – Bakı: Lider nəşriyyat, – 2004. – 264 s.
3. Harman, Ö.F. "Süleyman" Maddesi // İslam Ansiklopedisi. – 2010. –c. 38, – s. 56-60
4. Köksal, A. Peygamberler Tarihi / 2 cilt / A.Köksal. – Ankara: Türkiye Diyanet Vakfı Yayınları, – 2007, – c. 1 – 335 s., – c. 2, – 354 s.
5. Qurani-Kərim məali / Ərəb dilindən tərcümə edənləri: Z.Bünyadov, V.Məmmədəliyev / – Bakı: İpək yolu, – 2007. –604 s.
6. Nizami Gəncəvi: həyatı və yaradıcılığı. Sənətkarın elmi pasportu-25 (Kollektiv). – Bakı: Elm, - 2021. – 984 s.
7. Peygamberler Tarihi Ansiklopedisi – 2. / – İstanbul: Türkiye Qazetesi Yayınları, – 2004. – 445 s.
8. Seyid Haşim Rəsuli Məhəllat. Peyğəmbərlərin həyatı I cild. – Bakı: Kövsər, - 484 s.
9. https://ganjoor.net/nezami/5ganj/makhzanolasrar/sh25
10. https://shamela.ws/book/38058/2397

***Хаяла ГУСЕЙНОВА***
***Кандидат филологических наук***

**ПОВЕСТЬ О ПРОРОКЕ СУЛАЙМАНЕ И СТАРОМ ЗЕМЛЕДЕЛЬЦЕ В МАСНАВИ “СОКРОВИЩНИЦА ТАЙН”**
***РЕЗЮМЕ***

*Ключевые слова:* Низами Гянджеви, Хамса, Сокровищница тайн, Коран, Пророк Сулайман, фермер

Произведение Низами Гянджеви *“Сокровищница тайн”* представляет собой глубокий источник, отражающий нравственные ценности человека и философские аспекты жизни. В произведении такие высокие качества, как справедливость, честность, нравственность и милосердие, передаются читателю через различные рассказы. Эти рассказы демонстрируют примеры правильного поведения в повседневной жизни и подчёркивают значимость морали.

*“Повесть о пророке Сулаймане и старом земледельце”* также относится к таким назидательным историям. В этой повести Низами сопоставляет жизненную философию простого земледельца с мудростью пророка Сулаймана. Соответствие внешних и внутренних смыслов составляет одну из главных идей повествования. Добросовестный труд земледельца, его уважение к заработанному пропитанию и его скромность дают читателю нравственный урок. В повести особо подчёркивается важность упования на Бога и ценности человеческого труда. Каждая из этих тем остаётся актуальной и сегодня, продолжая направлять людей. Поэтому повесть сохраняет свою нравственно-назидательную значимость и в современную эпоху.

***Khayala HUSEYNOVA***
***PhD in Philology***

**THE STORY OF PROPHET SOLOMON AND THE OLD FARMER İN THE MASNAVİ “THE TREASURY OF MYSTERİES”**
***SUMMARY***

*Key words:* Nizami Ganjavi, Khamsa, *The Treasury of Mysteries,* Holy Koran , Prophet Solomon, Farmer

Nizami Ganjavi’s *“The Treasury of Mysteries”* is a profound source that reflects human moral values and the philosophical aspects of life. In the work, such noble qualities as justice, honesty, ethics, and fairness are conveyed to the reader through various stories. These stories present examples of proper conduct in daily life and emphasize the importance of morality. *“The Story of Prophet Solomon and the Old Farmer”* is one of these instructive tales. In this story, Nizami contrasts the life philosophy of a simple farmer with the wisdom of Prophet Solomon. The harmony between external and inner meanings constitutes one of the central ideas of the narrative. The farmer’s lawful labor, his respect for the sustenance he earns, and his modesty provide the reader with a moral lesson. The story particularly highlights the importance of trust in God and the value of human labor. Each of these themes continues to remain relevant today, guiding people in their lives. Therefore, the story preserves its moral and didactic significance even in the modern era.

***Daxil oldu: 19.11.2025-ci il***